

# SINIQLAR

*Fənn:*”**ÇAĞIRIŞAQƏDƏRKİ HAZIRLIQ”**

**sinif XI**

***Tədris vahidi :TİBBİ BİKİLƏRİN ƏSASLARI***

# TƏDRİS SUALLARI :

- 1.Sınıq nədir ?
- 2.Sınıqların hansı növləri var ?
- 3.Güllə sınığı nədir?
- 4.Sınıqların əsas əlamətləri hansılardır?
- 5.Hansı sınıqlar zamanı şok halı baş verir?
- 6.Qapalı sınıq açıq sınığa necə çevrilir?
- 7.Sınıqlar zamanı ilk tibbi yardım göstərmə-yin əsas qaydaları hansılardır?

- 8.İmmoblizasiya nədir?
- 9.Şinlər nədir və onlardan necə istifadə olunur ?
- 10.Travma şoku nədir və hansı səbəbdən baş verir?
- 11.Əlamətlərin meydana çıxması müddətinə görə şokun hansı növləri var?
- 11.Travma şoku hansı dərəcələrə bölünür?
- 12.Travma şoku zamanı ilk tibbi yardım necə həyata keçirilir?

# SINIQLARIN NÖVLƏRİ

Sınıq-müəyyən qüvvə,təzyiq,zərbə nəticəsində sümüyün tamlığının qismən vəya tam pozulmasıdır.

DƏRİNİN TAMLIĞININ POZULMASINA GÖRƏ

**Qapalı sınıq**

Dəri örtüyünün tamlığı pozulmur, görünən yara və qanaxma olmur

**Açıq sınıq**

Dəri örtüyünün tamlığı pozulur, sümük dərini deşib xaricə çıxır, yara əmələ gətirir və qanaxma olur.Açıq sınıqlar daha qorxuludur.

# QAPALI VƏ AÇIQ SINIQLAR



# SINIQLARIN QURULUŞUNA GÖRƏ NÖVLƏRİ

**TƏK(SADƏ) SINIQ**

**MÜRƏKKƏB SINIQ**

**YALNIZ İKİ HİSSƏYƏ PARÇALANMIŞ SINIQ. Nisbətən yüngül zədələnmələrdə təsadüf edilir.**

**BİR NEÇƏ HİSSƏYƏ PARÇALANMIŞ SINIQ. Qəzaılar,fəlakətlər , zəlzələ zamanı daha çox təsadüf edilir.**

- *GÜLLƏ SINIĞI-güllənin və ya mərminin təsirindən yaranan sınıq növüdür.*

# SINIQLARIN ƏSAS ƏLAMƏTLƏRİ

-ağrı;

-şişkinlik;

-sınıq yerində normal hərəkətin pozulması.





# SINIQLARIN FƏRQLİ ƏLAMƏTLƏRİ

- Açıq sınıqda yarada sümük qırıntıları;
- Qabırğalar sınarkən tələffüz çətinliyi,qabırğa qırıqlarının xışıltısı (krepitasiya);
- Çanaq və onurğa sümüklərinin sınması zamanı aşağı ətraflarda hərəkətin və bəzi funksiyaların pozulması;
- Çox ağır sınıqlar zamanı şok halının baş verməsi .

# DİQQƏTLİ OLUN !

İlk tibbi yardım göstərərkən yaralı ilə ehtiyatsız davranıldıqda şok əmələ gələ bilər.

İLK TİBBİ YARDIM ZAMANI SINIQ YERİNİN TƏRPƏNMƏSİNƏ YOL VERMƏK OLMAZ ! SINMIŞ SÜMÜK QIRIQLARININ TƏRPƏNMƏSİ NƏTİCƏSİNDƏ QAPALI SINIQ AÇIQ SINIĞA ÇEVRİLƏ BİLƏR !

# SINIQLAR ZAMANI İLK TİBBİ YARDIM QAYDALARI

## ƏSAS QAYDALAR :

**-ilk tibbi yardım tədbirlərini dəqiq yerinə yetirmək;**

**Qapalı sınığın açıq sınığa keçməsinin qarşısını almaq;**

**Bədənin sınıq zədəsi almış yerlərini immoblizasiya etməklə sınıq yerində sümükləri tərpənməz hala salmaq**



# SINIQ YERİNƏ ŞİN QOYULMASI

